**Orta ixtisas təhsili müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli, 168 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"na əsasən orta ixtisas təhsili müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin İqtisadi İnkişaf Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Bakı Kommersiya Texnikumu, Bakı İnşaat Texnikumu, Əli Bayramlı Sənaye Texnikumu, Ağdaş Kənd Təsərrüfatı Texnikumu, Gəncə Kənd Təsərrüfatı Texnikumu, Şamaxı Kənd Təsərrüfatı Texnikumu, Lənkəran Kənd Təsərrüfatı Texnikumu və Şuşa Kənd Təsərrüfatı Texnikumu ləğv edilsin.

2. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Bakı Plan-Uçot Texnikumunun bazasında Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci, Bakı Plan-İqtisad Texnikumunun bazasında Bakı Dövlət Sosial-İqtisadi Kolleci, Bakı Rabitə Kolleci və Bakı Dəmir Yolu Nəqliyyatı Texnikumu birləşdirilərək onların bazasında Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci, Sumqayıt Texnologiya Texnikumunun bazasında Sumqayıt Dövlət Texniki Kolleci, Sabirabad Kənd Təsərrüfatı Texnikumunun bazasında Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci, Lənkəran Məktəbəqədər Pedaqoji və Lənkəran Musiqi Texnikumları birləşdirilərək onların bazasında Lənkəran Dövlət Humanitar Kolleci, Quba Kənd Təsərrüfatı Texnikumunun bazasında Quba Dövlət Sosial-İqtisadi Kolleci, Şamaxı Aqroiqtisadiyyat Texnikumunun bazasında Şamaxı Dövlət Sənaye-İqtisad Kolleci, Göyçay Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi Texnikumunun bazasında Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci, Ağdaş Pedaqoji Texnikumunun bazasında Ağdaş Dövlət Humanitar Kolleci, Ağdam Kənd Təsərrüfatı və Ağdam Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi Texnikumları birləşdirilərək onların bazasında Ağdam Dövlət Sosial-İqtisadi Kolleci, Bərdə Kənd Təsərrüfatı Texnikumunun bazasında Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci, Zaqatala Kənd Təsərrüfatı Texnikumunun bazasında Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci, Şəki Texnologiya və Şəki Kənd Təsərrüfatı Texnikumları birləşdirilərək onların bazasında Şəki Dövlət Texniki Kolleci, Tovuz Kənd Təsərrüfatı

Texnikumunun bazasında Tovuz Dövlət Sosial-İqtisadi Kolleci, Qazax Kənd Təsərrüfatı Texnikumunun bazasında Qazax Dövlət Sosial-İqtisadi Kolleci, Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun bazasında Naxçıvan Dövlət Texniki Kolleci yaradılsın.

3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Təhsil Nazirliyi ilə birlikdə ləğv edilmiş texnikumların maddi-texniki bazasından qanunvericilikdə nəzərdə tutulmuş qaydada səmərəli istifadə olunmasını təmin etsin.[1]

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 26 avqust 2002-ci il
№ 140

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 28 noyabr 2005-ci il tarixli 220 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 11, maddə 220**)

**2.** 30 sentyabr 2009-cu il tarixli **157** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 10, maddə 846**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 28 noyabr 2005-ci il tarixli 220 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 11, maddə 220**) ilə 3-cü bəndində "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

30 sentyabr 2009-cu il tarixli **157** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 10, maddə 846**) ilə 3-cü bəndində "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi**" sözləri "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.